F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Ədəbiyyatımızın qadın səsi, ana nəfəsi - Əzizə Cəfərzadə

Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan görkəmli yazıçı Əzizə Cəfərzadənin 105- illik yubiley münasibəti ilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait

**Bakı -2026**

**Tərtibçi:** **Aynurə Əliyeva**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Ədəbiyyatımızın qadın səsi, ana nəfəsi - Əzizə Cəfərzadə -** Azərbaycan ədəbiyyatında öz qələmi ilə silinməz iz qoyon tədqiqatçı alim, Azərbaycan tarixini, onun etnoqrafiyasını, folklorunu, milli adət-ənənələrini dərindən bilən yazıçı, ictimai xadim Əzizə Cəfərzadənin 105-illik yubileyi münasibəti ilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait / tərt.ed. A.Əliyeva; red.R.Məmmədli; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2026.-21 s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

## Giriş

Dilimizdə bir-birindən şirin, bir-birindən poetik və yığcam söz birləşmələri səslənir: Sərin su, şirin söz, mehriban insan, xeyirxah adam, əziz dost, qayğıkeş qohum... Bu qəbildən olan söz birləşmələrinin məna tutumu və hikməti, ana nəfəsi, ana səsi, ana əllərinin təması, ana sözünün, ana nəvazişinin içərisində əriyib itir. Görünür buna görədir ki, ana qədər şeirdə, sənətdə təsvir və tərənnüm olunan ikinci bir varlıq yoxdur. Şairdir ana, sözü-söhbəti ilə. Nəğməkardır ana, dürlü-dürlü nəğmələri ilə. Belə qadınlardan biri də Əzizə Çəfərzadə idi. Mənsub olduğu xalqın ədəbi, tarixi-mədəni irsinin öyrənilməsi sahəsində böyük xidmətlər göstərən şəxsiyyətlər həmişə minnətdarlıqla xatırlanır. Xalq yazıçısı, içtimai xadim, ədəbiyyatşünas alim, professor Əzizə Cəfərzadə ömrünü Azərbaycan ədəbiyyatına, folkloruna dilçiliyinə, etnoqrafiyasına həsr edib. Qələmə aldığı tarixi romanlarla böyük nasir Məmməd Səid Ordubadi ənənələrinin davamçısı kimi tanınıb. XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan görkəmli yazıçı Əzizə Cəfərzadənin bu il 105 illik yubileyi qeyd olunur.

## Tarixi romanlar müəllifi- Əzizə Cəfərzadə

Əzizə Cəfərzadə 29 dekabr 1921-ci ildə Bakıda anadan olub. 38 saylı məktəbdə ibtidai təhsilini aldıqdan sonra Sabir adına Pedaqoji Texnikumda və Bakı Teatr məktəbində oxuyub. Əlaçı oxuduğu üçün Azərbaycanda ilk dəfə təsis edilən M.F.Axundov mükafatına birinci o layiq görülüb. 1942-44-cü illərdə Ağsu rayonundakı Çaparlı kəndində müəllim işləyib. 1946-47-ci illərdə ekstern yolu ilə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib. 1944-46-cı illərdə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenari şöbəsinin rəisi, 1947-49-cu illərdə teatr texniki məktəbinin müdiri, 1950-55-ci illərdə pedaqoji institutda dosent, kafedra müdiri, 1956-cı ildə Kamçatka pedaqoji institutunda dosent, 1957-74-cü illərdə Azərbaycan Elmlər Akademiyasının əlyazmalar İnstitutunda baş elmi işçi, şöbə müdiri işləyib. 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin professoru olub. XIX əsr Azərbaycan ədəbiyyatı tarixinin bilicisi kimi tanınan Əzizə Cəfərzadə 1950-ci ildə "XIX əsr Azərbaycan ədəbiyyatında maarifçi-ziyalı surətləri" mövzusunda namizədlik, 1970-ci ildə "XIX əsr Azərbaycan poeziyasında xalq şeiri üslubu" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. 1937-ci ilin vurhavur vaxtlarında ilk dəfə 16 yaşlı Əzizənin "Əzrayıl" adlı hekayəsi "Ədəbiyyat" qəzetində çap edilsə də, 11 il sonra onun çap edilən ilk kitabı Moskvanın xüsusi qərarı ilə satışa çıxmadan yığışdırılaraq yandırılıb. Sovet senzurası gənc yazıçını salon lirikasını tərənnümdə, yəni "Axmatovşina"da ifşa edərək kitabı yığışdırır. Bu qərar Əzizəyə pis təsir etsə də, onun

bir yazıçı kimi tarixi əsərlər yazmasına mane olmayıb. Müasir Azərbaycan nəsr tarixində tarixi roman janrı onun qələmi ilə yenidən canlanıb. Yazıçı 1963-cü ildə "Natavan haqqında hekayələr"i yazıb. Bu hekayələrdə o, Xurşudbanu Natəvanın həyatını dolğun ifadələrlə qələmə alıb. Müəllifin ilk tarixi romanı XIX əsrdə Şamaxıda yaşayıb-yaradan məşhur şair Seyid Əzim Şirvaninin ədəbi həyatından bəhs edib. "Aləmdə səsim var mənim" adlı həmin roman 1973-78-ci illərdə yazılıb. Paralel olaraq yazdığı "Vətənə qayıt" tarixi romanı isə 1977-ci ildə çap edilib. XVIII əsrdə rus qoşunlarının Azərbaycana ilk gəlişi fonunda şair Nişat Şirvaninin həyatı və Şirvanın Səlyan bölgəsində baş verən hadisələr romanda müfəssəl təsvir olunub. Artıq bu illərdə hamı–ədəbi ictimaiyyət də, sıravi oxucular da yazıçıdan yenə tarixi əsərlər gözləyirdi. 1980-ci ildə XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayan romantik şair Abbas Səhhətin həyat və yaradıcılığından bəhs edən "Yad et məni" romanını, cəmi bir il sonra Şah İsmayıl Xətai və onun Bakıya yürüşü tarixini özündə əks etdirən "Bakı-1501" tarixi romanını yazıb. "Cəlaliyyə" (1983) romanında isə XII əsr Naxçıvanın qadın hökmdarı Cəlaliyyənin Vətənin müdafiəsi uğrunda apardığı mübarizənin tarixini dəqiqliklə göstərib. Əzizə Cəfərzadənin qadın həmkarlarından ən böyük fərqi onun tutduğu yolu dönmədən, kişi kimi mətinliklə davam etdirməsindədir. Onun əsərləri də bir sıra xarici dillərə, o cümlədən rus, fars, tacik, ərəb, qazax və sair tərcümə edilib xaricdə nəşr edilmişdir. Fasiləsiz olaraq televiziya və radioda müxtəlif mövzularda çıxışlar etmiş, televiziyada "Klassik irsimizdən", "Aşıq Pəri" və sair çoxsayı proqramların müəllifi və aparıcısı olmuşdur. Bu verilişlər vasitəsi ilə xalqa Azərbaycan klassik və müasir ədəbi irsini təbliğ etmişdir. Bununla yanaşı o radioda Cənubi Azərbaycan üçün verilən proqramların və "Ana" radio jurnalının uzun illər daimi iştirakçısı olmuşdur.

1981-1989-cu illərdə Respublika Qadınlar Şurasının sədri vəzifəsində işləmişdir. Azərbaycan qadın və uşaqlarının hüquqlarının qorunması sahəsində aktiv fəaliyyət göstərmiş, respublikanın ən ucqar rayon-kəndlərinə belə dəfələrlə getmiş və millətin tarixi, taleyi ilə bağlı problemlərlə tanış olmuş, bu problemlərin həll edilməsində yaxından iştirak etmişdir. Azərbaycanın müstəqilliyi uğrunda və erməni təcavüzünə qarşı hərəkatda daim öndə və fəal iştirak edən bir vətəndaş olmuşdur.

Əzizə Cəfərzadənin Azərbaycan elmi və ədəbiyyatı qarşısında göstərdiyi xidmətlər yüksək qiymətləndirilmişdir. O, dönə-dönə müxtəlif fəxri fərmanlar, "Xalqlar dostluğu" ordeni və müstəqil Azərbaycanın ali mükafatı–"Şöhrət" ordeni ilə təltif edilmişdir. Azərbaycan Respublikası prezidentinin fərdi təqaüdçüsü idi. Azərtelefilm birliyi onun həyat və yaradıcılığı haqqında 2 telefilm çəkmişdir. Əzizə xanımın ən böyük mükafatı isə xalqın ona qarşı olan böyük məhəbbəti idi. Bu sevginin məntiqi

nəticəsi kimi, o 2001-ci ildə "Azərbaycan Anası" və "Xalq Yazıçısı" kimi yüksək adlara layiq görülmüşdür. Yazıçı mənsub olduğu xalqın tarixini bədii ədəbiyyata gətirməklə onun təbliğinə çalışırdı. İstər tarixi, istərsə də ədəbi prosesləri gözəl bilən və daima axtarışda olan ədəbiyyatşünas alim Azərbaycan ədəbiyyatında öz qələmi ilə silinməz iz qoyub. "Sabir" (1989) romanı XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayıb-yaradan məşhur satirik şair Mirzə Ələkbər Sabirə, "Eldən elə" (1992) XIX əsrdə 37 il dünya səyahətində olan coğrafiyaşünas Zeynalabdin Şirvaniyə həsr edilib. "Bir səsin faciəsi" (1995), "Gülüstan"dan öncə" (1996), "Zərrintac-Tahirə" (1996), "İşığa doğru" (1998), "Bəla" (2001), "Rübabə sultanım" (2001) tarixi romanları Əzizə Cəfərzadənin fasiləsiz axtarışlarının məhsuludur.

Əzizə xanımın nəsr əsərləri əsasən tarixi roman janrında yazılmışdır. O, müasir Azərbaycan nəsr tarixində bu janrı yenidən həyata gətirmişdir. Onun bu qəbildən yazdığı əsərləri aşağıdakılardır:

• "Natavan haqqında hekayələr!" (1963)–bu hekayələrdə yazıçı Qarabağın son xanı Xurşidbanu Natəvanın (XIX əsr) həyatını qələmə almışdır;

• "Aləmdə səsim var mənim" (1973-1978)- ilk tarixi romanı XIX əsrdə Şamaxıda yaşayıb-yaratmış məşhur şair Seyid Əzim Şirvaninin ədəbi həyatı haqqındadır;

• "Vətənə qayıt" (1977)– XVIII əsrdə rus qoşunlarının Azərbaycana ilk gəlişi fonunda şair Nişat Şirvaninin həyatı və Şirvanın Səlyan bölgəsində baş verən hadisələr;

• "Yad et məni" (1980)–XIX əsrin sonu XX əsrin əvvəllərində romantik şair Abbas Səhhətin həyat və yaradıcılığı ilə bağlı roman;

• "Bakı-1501" (1981)–Şah İsmayıl Xətai və onun Bakıya yürüşu tarixinə həsr olunmuş roman;

"Cəlaliyyə" (1983)–XII əsr Naxçıvanın qadın hökmdarı Cəlaliyyənin ölkənin müdafiəsi uğrunda apardığı mübarizənin tarixi;

• "Sabir" (1989)–XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayıb-yaratmış məşhur satirik şair Mirzə Ələkbər Sabirə həsr edilmiş əsər;

• "Eldən elə" (1992)–XIX əsrdə 37 il dünya səyahətində olan coğrafiyaşünas Zeynalabdin Şirvaninin həyatı haqqında roman;

• "Bir səsin faciəsi" (1995)–XIX əsrin sonunda yaşamış müğənni Mirzə Güllərin faciəli həyatından bəhs edən əsər;

- "“Gülüstan” dan öncə” (1996)–XIX əsrin əvvəllərində rus qoşunlarının Şirvana hücumu tarixinə həsr olunmuş roman;
- “Zərrintac-Tahirə” (1996)-XIX əsrdə İran Azərbaycanında yaşayıb-yaratmış qadın şairə və Bab hərakatının liderlərindən biri Tahirə Qürrətüleynin həyatı haqqında əsər;
- “İşığa doğru” (1998)–XX əsrdə İranda Bab hərakatının əks-sədası kimi baş verən faciəvi tarixə həsr edilmiş povest;
- “Bəla” (2001) XVI əsrdə Şah İsmayıl Xətaidən sonra Azərbaycanda baş verən və sonu Azəbaycanın xırda xanlıqlara parçalanması ilə nəticələnən hakimiyyət uğrunda gedən saray çəkişmələri haqqında əsər;
- “Rübabə-sultanım” (2001)–XX əsrdə baş verən ictimai-siyasi hadisələr fonunda yarı bioqrafik romanı;
- “Xəzərin göz yaşları” (2003)–1938-cı ildə Azərbaycanda yaşayan İran azərbaycanlılarının Stalin rejimi tərəfindən 3-4 gün ərzində İrana məcburi deportasiyasi haqqında povest;

“Eşq Sultanı” (Ölümündən bir az əvvəl bitirmişdir)- XV-XVI əsrdə yaşayıb-yaratmış böyük Azərbaycan şairi Məhəmməd Füzulinin həyatı haqqında roman.

Yazıçının “Sahibsiz ev” (1966), “Əllərini mənə ver” (1970), “Sənsən ümidim” (1984), "Xəyalım mənim" (2002) kimi bir sira povestlərinin mövzusu müasir həyatdan götürülmüşdür.

“Qızımın hekayələri” (1964), “Anamın nağılları” (1982), “Çiçəklərim” (1988), “Pişik dili” (2001) və sair uşaqlar üçün yazdığı hekayə və nağıllardır.

Əzizə Cəfərzadənin anadan olmasının 105 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, rəsm və digər müsabiqələr, ədəbi-bədii gecə keçirilə bilər. Bu dahi şəxsiyyəti sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunur. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: “Əzizə dünyası”, “Yasaq edilmiş tarixə işıq tutan insan-Əzizə Cəfərzadə”, “Millətimizin yaddaş dayışıyıcısı-Əzizə Cəfərzadə”, “Yorulmaz alim, cəfakeş yazıçı-Əzizə Cəfərzadə”, “Əbədi ayrılığın qüssəsi”, “Zərif qəlbin yazdığı tarixi həqiqətlər”, “Qəlbin eldən ayrılmasın”, “Tarixi romanlar müəllifi- Əzizə Cəfərzadə”, “Aləmdə səsi olan insan-Əzizə Cəfərzadə”, “Dünyanı ədəbiyyatımıza gətirən xanım”, “Xəyalımızda yanan işıq- Əzizə Cəfərzadə”, “Ədəbiyyatımızın qadın səsi, ana nəfəsi”, “Talant, bilik,

zəhməti uca olan qadın-Əzizə Cəfərzadə", "Tariximiz folklordadır, deyən alim", "Öz dilini qoruyan alim", "Qəlbi elindən ayrılmayan-Əzizə Cəfərzadə", "Tədqiqatçı və bədii söz ustası", "Xeyriyyəçi qadın, vətənpərvər insan və "Azərbaycan Anası"", "Elmimizin və elimizin ağbirçəyi-Əzizə Cəfərzadə", "Sözüm hələ çoxdur deyən-Əzizə Cəfərzadə" və s. Bundan başqa görkəmli yazıçı-alim Əzizə Cəfərzadənin müxtəlif illərdə çəkilmiş foto stendi, kitabları sərgidə öz yerini alır. Ədibin müxtəlif dövrlərdə öz əsərləri ilə yanaşı müxtəlif ədiblərin, alim və yazarların Əzizə Cəfərzadə haqqında yazdığı materiallar, söylədikləri sitatlar da sərgidə nümayiş olunur.

**Görkəmli şəxsiyyətlərin Əzizə Cəfərzadə haqqında söylədikləri:**

Bədii yaradıcılıqla yanaşı, elmi fəaliyyətlə də ardıcıl məşğul olan Əzizə Cəfərzadənin əsərləri hər iki fəaliyyət sahəsinin sintezi və qovuşuğu kimi xarakterizə oluna bilər. Onun bədii əsərlərində elmilikdən gələn dəqiqlik, sənətlilik, elmi əsərlərində bədiilikdən doğan emosionallıq, oxunaqlılıq, poetiklik hökm sürməkdədir.

Qulamrza Səbri Təbrizi,

Professor

Öz elmi əsərləri və publisistik məqalələri ilə Azərbaycan ədəbiyyatşünaslığını daha da zənginləşdirən professor Əzizə xanım Cəfərzadə bir yazıçı kimi də respublikamızın ədəbi mühitində layiqli yer tutmuşdur.

C. Məmmədov,

Tarix elmləri namizədi

Sənət aləmində Əzizə Cəfərzadənin öz səsi, öz nəfəsi vardır. Onun əsərlərində insanpərvərlik, xeyirxahlıq, səmimilik və mehribanlıq motivləri insanları ülviyyətə çağırır.

Solmaz Məmmədbəyli,

Elmi işçi

Əzizə Cəfərzadənin tədqiqatçı alim kimi təqdirəlayiq xidmətləri olub. O, eyni zamanda xalq yaradıcılığının, etnoqrafik yaddaşın da vurğunu olub.

Savalan Fərəcov,

Jurnalist

Əzizə xanım öz üslubu, dəst-xətti olan yazıçıdır. O, Azərbaycan tarixini, onun etnoqrafiyasını, folklorunu, milli adət-ənənələrini dərindən bilən yazıçılardan idi. O, şifahi xalq ədəbiyyatının, aşıq sənətinin, bayatıların, atalar sözlərinin vurğunu idi.

Mənzər Niyarlı,

Jurnalist

İki nasiri vardı müasir türk dünyamızın: Samiha Ayverdi və Əzizə ana.

Salman Vilayətoğlu,

Jurnalist

Əzizə Cəfərzadənin bircə fəxri adı var-ülvü Ana adı. Bir millətə ana olmaqsa, hər kəsə nəsib olan səadət deyil.

Salman Vilayət oğlu,

Jurnalist

Kitabxanada Əzizə Cəfərzadənin yaradıcılığını oxuculara tanıtmaq məqsədilə biblioqrafik icmal, oxucularla sərgi ətrafında söhbət keçirmək olar. Əzizə Cəfərzadənin kitablarından ibarət sərgi təşkil olunur. Kitabxanaçı sərginin ətrafında oxucularla söhbət keçirir. Söhbət zamanı ilk olaraq yazıçının həyat və yaradıcılığı, daha sonra isə kitabları haqqında qısa məlumat verilir:

Kitabxanaçı: Əzizə Cəfərzadə bir tədqiqatçı alim kimi Azərbaycan elmi qarşısında təqdirəlayiq xidmətlər göstərmişdir. Onun klassik Azərbaycan ədəbiyyatının, xüsusilə də şifahi ədəbi irsimizin öyrənilməsi sahəsində gərgin elmi axtarışlarının bəhrəsi olan əsərlər həmişə elmi ictimaiyyətin marağına səbəb olmuşdur. Əzizə xanımın elmi-tədqiqatları onun ədəbi yaradıcılığına da güclü təsir göstərmiş və yazıçının əsərlərini Azərbaycan dilinin saflığı və təmizliyi uğrunda mübarizənin bariz nümunəsinə çevirmişdir. Əzizə xanım ədəbi və elmi yaradıcılığı pedaqoji fəaliyyətlə uğurlu bir şəkildə əlaqələndirməyi bacarırdı. Elmi tədqiqatçı kimi bir sıra aşıq və şairlərin əsərlərini toplayib çap etdirmişdir ki, bunlara “Fatma xanım Kəminə” (1971), “Könül çırpıntıları” (1972), “Azərbaycanın aşıq və şair qadınları” (1974-1991), “Azərbaycanın şair və aşıq qadınları” (II nəşr 2003), “Şirvanın üç şairi” (1971), “Mücrüm Kərim Vardani. Sünbülstan” (1978), “Abdulla Padarlı. Seçilmiş əsərləri” (1979), “Hər budaqdan bir yarpaq” (1983) daxildir. Onun bir çox toplayib çap etdirdiyi əsərlərin əsas hissəsini ana və qadın mövzusu təşkil edir ki, bunlar da Əzizə xanıma romanlarından az şöhrət gətirməmişdir. Bu kitablar vasitəsi ilə o, ta qədim dövrlərdən Azərbaycanda

yüksək poetik səviyyəli yazılı və şifahi qadın yaradıcılığının mövcud olduğunu və dünya ədəbiyyatında öndər olduğunu sübut etmişdir. Bu əsərlərlə yanaşı onun yüzlərlə məqalə, oçerk, elmi tədqiqat və publisistik məqalələri dövrü mətbuatda çap edilmişdir.

O, "Natavan" adli kino ssenari, çoxlu sayda radio-televiziya pyesləri xatirat və saysız hesabsız bayatı yazmışdır. Əzizə xanım folklorumuzun vurğunu idi, "Bayatı düşüncələrim", "Xızır Nəbi", "Novruz" və başqa Azərbaycan adət-ənənələri, etnoqrafiyası ilə bağlı yazıları, televiziya-radioda çıxışları onu xalqın sevimlisi etmişdir. Bir çox xarici ölkələrdə, o cümlədən Yuqoslaviya, Suriya, Kipr, Hindistan, Sinqapur, Malaziya, İsrail, İraq və Türkiyədə beynəlxalq əhəmiyyətli tədbirlərin iştirakçısı olmuşdur. Bu ölkələrin kitabxanalarından tarixi əsərlər ilə bağlı məlumatlar toplamış və səyahət gündəlikləri yazmışdır. Bunlardan birində 1965-1966-cı illərdə həyat yoldaşının işi ilə bağlı Qanaya səfərinin gündəlikləri "Qızıl sahilə səyahət" (1968) xatiratını yazmasıdır.

Əzizə xanım bir sıra xarici müəlliflərin o cümlədən S.Smirnovun "Brest qalası", Ş.Rəşidovun "Güclü dalğa", A. Lixanovun "Mənim generalım", Ə.Kabaklənin "Əjdaha daşı", S.Çokumun "Bizim diyar" və sair əsərləri ana dilimizə tərcümə etmiş, bir çox kitabın redaktoru olmuşdur.

Filologiya elmlər doktoru professor Əzizə Cəfərzadə bir sıra kitabların müəllifidir. İlk kitabı 1963-cü ildə "Natəvan haqqında hekayələr" adı ilə çapdan çıxmışdır. Bundan sonra yazıçının "Sahibsiz ev", "Əllərini mənə ver", "Qızıl sahilə səyahət" və başqa hekayə və povestləri də kitab halında nəşr edilmişdir. Azərbaycan tarixindən bəhs edən romanlar ümumi "Şirvan" başlığı ilə məlum olan trilogiyanın birinci hissəsi "Vətənə qayıt" oxuculara təqdim olunmuşdur. Yazıçının əlimizdə olan kitablarından biri "Sahibsiz ev"dir. Hamı tərəfindən sevilən və birmənalı qarşılanan "Sahibsiz ev" kitabı hekayələr toplusudur. İnsanlara nümunə, örnək ola biləcək bu kitab ailə-məişət zəmnində yazılan bir kitabdır.

Əzizə Cəfərzadənin daha bir kitabı "Vətənə qayıt" adlanır. "Aləmdə səsim var" romanı isə trilogiyanın ikinci hissəsidir. Roman XIX əsrin böyük şairi və maarifçisi Seyid Əzim Şirvanin həyatından bəhs edir. Şairin maarifə, məktəb açmağa meyl göstərməsi Şirvanda baş verən əhvəlatlarla bağlı bir şəkildə qələmə alınmışdır. Romanda Seyid Əzim Şirvanin bir maarifçi kimi formalaşması o dövrün səciyyəvi hadisələri fonunda göstərilir. Əzizə Cəfərzadənin Azərbaycanın üç görkəmli sənətkarlarının həyatından bəhs edən trilogiya yazdığı oxuculara məlumdur. Trilogiyada "Vətənə qayıt" XVII əsrin sonu, XVIII əsrin əvvəllərində Nişat Şirvanin,

“Aləmdə səsim var mənim” XIX əsrin görkəmli maarifçi şair Seyid Əzim Şirvanin və “Yad et məni” adlı üçüncü hissədə isə XX əsrin əvvəllərində yazıb-yaradan Abbas Səhhətin həyatı fonunda baş verən hadisələr qələmə alınmışdır. “Vətənə qayıt” romanı həmin trilogiyanın birinci hissəsidir. Kitaba yazıçının “Əllərini mənə ver...” povesti də, daxil edilmişdir. Bundan əlavə Əzizə Cəfərzadənin 1980-ci ildə işıq üzü görmüş daha bir kitabı “Yad et məni” adlanır. Səmimi dostluqdan, məişət problemlərindən, insana xas olan müsbət xüsusiyyətlərin ön plana çəkilməsi bu kitabın ana xəttinə çevrilmişdir.

Görkəmli yazıçının 1992-ci ildə nəşr olunan kitabı “Eldən-elə” adlanır. Romanda XVIII əsrin əvvəlində yaşamış, ədəbiyyatımıza “Riyozüs-səyahə”, “Büstanüs-səyahə” və bu kimi olduqca qiymətli əsərlər bəxş etmiş Hacı Zeynalabdın Şirvaninin həyatından bəhs olunur. Yazıçı bu əsəri ilə oxucunu azərbaycanlı səyyahın əsərləri və onun təxəyyülü əsasında həyatı ilə tanış edir. Əzizə Cəfərzadənin 1998-ci ildə oxucu görüşünə gələn kitablarından biri də “İşığa doğru” romanı yazıçı Əzizə Cəfərzadənin sayca otuz üçüncü kitabıdır. Bu əsər ədibin “Zərrintac-Tahirə” romanının bir növ davamıdır. Romanda XIX yüzilliyin ikinci yarısında Azərbaycanda İrandan nəşəm edən babilik, bəhauluk dini cərəyanının yayılması ilə əlaqədar olaraq fanatizm qurbanları, xüsusilə Nəsrəddin şah dövründə Cənubi Azərbaycanda binəsiblərin bir parça çörək ümidi ilə müxtəlif dini məzhəblərə qoşulmaları diqqət mərkəzinə çəkilir. Müəllif belə bir qənaətə gəlir ki, zülm, istibdad, dərəbəylik olan ölkələrdə binəsiblərin istismarı davam etdikcə mübarizə də davam edəcək, insan daim işığa doğru can atacaqdır.

Əzizə Cəfərzadənin oxuculara təqdim olunan yeni kitablarına 1938-ci ildə Bakıda törədilən və millətə qarşı çevrilmiş cinayətkar hadisələrdən bəhs edən “Xəzərin göz yaşları” romanı və “Xəyalım mənim” adlı povesti daxil edilmişdir. Kitab “Biz Cəfərzadələr” adlanır. Kitaba yazıçı, professor Əzizə Cəfərzadənin bir nəslin tarixi fonunda XIX-XX əsrlərdə Azərbaycan məkanında baş verən mühüm hadisələri əks etdirən “Rübabə Sultanım” romanı, filologiya elmlər doktoru Məmməd Cəfarzadənin “Biz Cəfərzadələr” bioqrafik yazısı və şeirləri, filologiya elmlər doktoru Əhməd Cəfərzadənin “Adsız qəhrəmanlar” povesti və “Eşitdiklərim, gördüklərimdən yadımda qalanlar” yazısı daxil edilmişdir. Bu kitab Əzizə xamım Cəfərzadənin 80 illiyinə oğlu Turanın hədiyyəsidir.

Yazıçının daha bir uğurlu kitabı 2005-ci ildə nəşr olunan “Eşq sultanı” çağdaş Əzizə Cəfərzadənin əsərindən biri olan Əzizə Cəfərzadənin sonuncu romanıdır. Tarixi janrda qələmə alınmış roman böyük Azərbaycan şairi Məhəmməd Füzulinin ömür yolundan bəhs edir.

İyirminci yüzilin Azərbaycan ədəbiyyatının istedadlı nümayəndələrindən biri olan xalq yazıçısı Əzizə Cəfərzadənin yaradıcılığını oxuculara tanıtmaq məqsədi ilə kitabxanada "Ümumi sual-cavab" keçirilə bilər. "Sual-cavab"ın yuxarı sinif şagirdləri arasında keçirilməsi məqsədə uyğundur.

1.Sual: Əzizə Cəfərzadə yaradıcılığının Azərbaycan ədəbiyyatında rolu və mərhələləri haqqında nə deyə bilərsiniz?

Cavab: Əzizə xanım gözəl romanlar müəllifi, istedadlı, bir yazıçı, yorulmaz tədqiqatçı, daim arayıb, axtaran görkəmli bir alim, ədəbiyyatımızın alovlu təbliğatçısı, pedaqoq və içtimai həyatda özünəməxsus mövqeyi olan bir şəxsiyyət kimi milli mədəniyyətimizin tarixində iz qoymuşdur. Əzizə Cəfərzadənin yaradıcılıq rolunu şərti olaraq üç mərhələyə bölmək olar. 1937-1970-ci illəri əhatə edən birinci mərhələ ilk yaradıcılıq axtarışları kimi dəyərləndirilə bilər. Yazıçı bu dövrdə tarixi və müasir mövzularda hekayə yaradıcılığı ilə məşğul olmuş, eyni zamanda gələcək tarixi romanların ilkin zəmnini təmsil edən elmi-publisistik fəaliyyətini davam etdirmişdir. 1970-1990-cı illərlə hüdudlanan ikinci mərhələdə isə yazıçı ədəbi və siyasi şəxsiyyətlərin həyatından bəhs edən bir sıra mühüm tarixi romanlarını yaratmış, bir nasir kimi özünü tam təsdiq etmişdir. Nəhayət, 1991-2003-cü illəri əhatə edən sonuncu mərhələdə yaradıcılığı mahiyyətcə yeni məzmun kəsb etmiş yazıçı diqqəti Azərbaycan siyasi tarixinin ən aktual problemlərinə yönəldə bilmiş, həmçinin milli mənəviyyatımızın ağrılı məsəllərini işıqlandırmışdır.

2 Sual: Əzizə Cəfərzadə yaradıcılığa ilk olaraq hansı əsərlə gəlmişdir?

Cavab: Əzizə Cəfərzadə yaradıcılığa "Əzrayıl" adlı hekayə ilə başlamışdır. 1937-ci ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş bu hekayədə yazıçı dövrün sosial həyatının canlı bədii mənzərəsini yarada bilmişdir. Məhz bu dövrdən etibarən hekayələri, povestləri elmi və publisistik yazıları ilə o, vaxtaşırı olaraq mətbuatda çıxış etmiş, bir sıra maraqlı və məzmunlu sənət örnəkləri ortaya çıxarmışdır.

3.Sual: Yazıçı o illəri necə xatırlamışdır?

Cavab: "...İlk kitabım 1948-ci ildə oxuculara çatmalıydı. Kitabın ilkin nüsxəsini alan mərhum tənqidçimiz Cəlal Məmmədov onun haqqında "Azərbaycan gəncləri" qəzetində (11iyun 1948) hətta məqalə ilə çıxış etmişdi, lakin kitab işıq üzü görmədi, yandırıldı, əlimə bircə nüsxəsi belə keçmədi, üzünü də göstərmədilər mənə. Çünki məni o zaman "Axmatovşina"da, adını bilmədiyim "salon lirikası" tərənnümündə günahlandırmışdılar. Bəlalı il idi."

4. Sual: Əzizə Cəfərzadənin əsərləri janr etibarı ilə  çoxşaxəlidir. Bu haqda nə deyə bilərsiniz?

Cavab: Əzizə Cəfərzadə əsərlərini müxtəlif janrlarda səciyyəvidir, buna baxmayaraq, Azərbaycan ədəbiyyatında daha çox romanlar müəllifi kimi yadda qalmışdır. Ədibin əsərlərində qədim dövrlərdən tutmuş XX yüzilə qədər Azərbaycan tarixinin mürəkkəb, keşməkeşli hadisələri öz bədii təcəssümünü tapmışdır. Sənətkarın tarixi romanlarını səciyyələndirən ən mühüm cəhətlərdən biri də onların ideyaca müasirliyi, bu günün problemləri ilə bağlı olmasıdır. Bu romanlar dil, üslub, yazı manerasının orjinallığı, təsvir olunan faktlara və hadisələrə yanaşma tərzi ilə də diqqəti çəkməkdədir. Bir məsələyə də fikir vermək lazımdır ki, sovet imperiyasının ən çətin və ən mürəkkəb dönəmində yazıb-yaratmasına baxmayaraq, Əzizə Cəfərzadənin əsərlərində dövrün konyukdur elementləri, saxta idealogiyanın izləri öz əksini tapmamışdır. Əksinə, yazıçı tarixi mövzulara müraciət etməklə dolayısı ilə sovet imperiyasının təlqin etdiyi ideoloji stereotiplərə etirazını ifadə etmişdir.

5. Sual:  Dəyərli yazıçı Əzizə Cəfərzadənin "Vətənə qayıt" kitabı haqqında nə deyə bilərsiniz?

Cavab: Yazıçının yaradıcılıq axtarışlarının mühüm uğurlarından sayılan Şirvan trilogiyasında Azərbaycan tarixi yaddaşında əhəmiyyətli yer tutan Şirvanın yetirdiyi ədəbi şəxsiyyətlərin bədii surətləri yaradılmışdır. Belə ki, trilogiyanın ilk əsəri olan "Vətənə qayıt" romanında XVIII əsr yüzilliyin istedadlı söz ustadı Nişat Şirvaninin, ikinci hissəsini təşkil edən "Aləmdə səsim var mənim" romanında XIX  yüzilin görkəmli şairi Seyid Əzim Şirvaninin, sonuncu hissəsi olan "Yad et məni" romanında isə XX  yüzildə yaşayıb yaratmış vətəndaş şair Abbas Səhhətin həyat və fəaliyyəti təsvir olunmuşdur.  Ancaq bu əsərləri ayrı-ayrı əbədi şəxsiyyətlərə həsr olunmuş sənət örnəkləri kimi dəyərləndirmək doğru olmazdı. "Vətənə qayıt" (1972) romanın ön sujetində Vətən və məhəbbət aparıcı yer tutmaqdadır. Yazıçı bütün roman boyu bu sujet xətlərininin paralel, bəzənsə qovuşuq təsvirini verə bilmişdilər. Əsərdə yalnız Nişat Şirvaninin deyil, taleyini vətənlə bağlamış olan bir sıra qəhrəmanların obrazları da bədii inikasını tapmışdır. "Vətənə qayıt" romanının sujeti kədərli motivlərlə müşayiət olunsa da, əsərin finalı nikbin səciyyə daşıyır. Əsərdə həyatı, varlığı, yaradıcılığı ilə doğma elinə-obasına bağlı olan şair Nişat Şirvaninin sürgün edildiyi Salyandan doğulduğu yurda-Şamaxıya dönüşü ibrətamiz məna və məzmun daşıyır.

"Aləmdə səsim var mənim" romanında Əzizə Cəfərzadə yaradıcılığına və şəxsiyyətinə böyük məhəbbət bəslədiyi Seyid Əzim Şirvaninin obrazını yaratmağı

qarşısına məqsəd qoysa da, yazıçı bununla kifayətlənmiş, bütövlükdə XIX yüzilliyin Şirvan tarixini, daha doğrusu, Şamaxı mühitini içtimai-siyasi və əbədi-mədəni hadisələrin canlı mənzərəsi fonunda və etnoqratik yaddaşın işığında izləmişdir.

Yazıçı, ədəbiyyatşünas, ictimai xadim, filologiya elmləri doktoru, professor Əzizə Cəfərzadənin 105-illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də nağıl otağında oxucuların iştirakı ilə keçirilən "səhnəcik" dir. İştirakçılar əsərə uyğun geyimlərdə olur və nağıl otağı dekorasiyalarla bəzədilir. Kitabxanaçı ilk olaraq dəyərli yazıçı Əzizə Cəfərzadənin həyat və yaradıcılığı haqqında qısa məlumat verdikdən sonra, nağıl otağında tamaşaçıları "Çörək" adlı səhnəciyə baxmağa dəvət edir.

İştirakçılardan biri nağılı nəql edən qismində sözə başlayır.

Nağılı danışan: Biri var idi, biri yox idi, allahın bəndəsi çox idi. Lap qədim zamanlarda öz əlinin zəhməti ilə çörəyini qazanan Etibar adında bir kişi var idi. Bu kişinin gülərüz, mehriban arvadı, on iki də bir-birindən xırda uşaqları vardı. Etibar kişi hər gün səhər çırtdamamışdan yerindən durub çütünü qoşar, yer şumlar, taxıl əkər, sular, alnının tərini tökə-tökə qızmar yayda biçin biçər, xırman döyərdi. Bu ağır zəhmətnən başa gələn çörəyin qədir-qiymətini, hörmətini yaxşı bilərdi. Bir dəni çöldə qoymaz, bir tikəni çörəyin ayaq altına düşməyinə razı olmazdı. Odu ki, bin-bərəkət ondan qaçmaz, nemət başından yağardı. Təkcə canıynan işləsə də, on dörd baş külfəti firavan saxlayardı. Şahın vergisin, xanın, bəyin tələbin ödəyərdi; hələ bir seyid-molla, kovxa, dərviş də onun xırmanından ruzi aparardı. Arvada tapşırmışdı, özü evdə olmayanda-arvadın, olanda da özünün işi-peşəsi uşaqların ardınca gəzib, yerə düşən çörək tikələrini yığmaq idi. Günlərin birində bu ölkənin padşahı ovdan qayıdanda yolu Etibar kişinin evinin yanından düşdü. Gördü bir səliqə-səhmanlı həyətdə bir dəstə uşaq oynaşır. Hamısı da böyüklü-kiçikli bir-birinə oxşayır. Deyəsən bacı-qardaşdılar. Hamısınında yanağından qan damır. Eləbil ölkədəki qıtlıqdan bunların heç xəbəri yoxdu. Şah darğanı çağırtdırıb elə atüstü hal-əlval tutdu.

Şah: -Bu ev kimindi, bu külfət, bu colma-cocuk kimindi

Darğa: -Qibleyi-aləm, cütcü Etibar kişinin həyətidi. On ikidə xırda-xırda uşağı var. Ən böyüyü də hələ çomaq götürən olmayıb.

Şahı heyrət götürdü:

Şah:-Yaxşı, bu qıtlıq zəmanədə o bu külfəti necə dolandırır? Yəqin ki, vergi zad almırsız?

Darğa bir az cürətləndi:

Darğa:-Təsəddüqün olum, qibleyi-aləm, necə ki, almırıq? Alıram! Lap artıqlamasıynan verir. Fitrəsin, zəkatın, imammalısın, seyidmalısın da ötürmür.

Şahın təəccübü daha da artdı:

Şah:-Yəqin başqa yerdən gəliri, ya da dədə-baba irsi-zadı var.

Darğa: -Xeyr, qibleyi-aləm, bircə cütü var. Dəxi heç nəyə gümanı gəlmir.

Şah danışdıqca onun ağılbən vəziri həyətə, burda oynaşan uşaqlara göz qoymuşdu. Nə fikrə gəldisə birdən sözə qarışdı. Vəzir: Qibleyi-aləm, darğa haqlıdı. Bunun bircə sirri var... Mən deyəsən o sirri tapmışam.

Şah maraqla soruşdu:

Şah: -Nədi?

Vəzir gözü həyətdə cavab verdi:

Vəzir:-Bu evdə çörəyə hörmət var, hökmdarım! Bir bax, eylə uşaq olan həyətdə ayaq altında bir qırıq çörək yoxdu.

Elə bu vaxt Etibar kişinin arvadı təndirxanadan çıxdı. Başındakı tabaqda qıpqırmızı qızarmış lalagülü çörəklər buğlanır, sarıbuğda çörəyinin ətri burnuna dəyənləri bihuş eləyidri. Uşaqlardan ən kiçikləri ananın qıçlarına sarmaşdılar:

Uşaqlar: -Ana qoqal, ana kökə...

Arvad heç aldırmadı, körpələrinə tərəf əyilmədi də. Başındakı tabağı yerişinə həmahəng yelləyə-yelləyə evə doğru irəlilədi və uşaqlara belə cavab verdi:

Ana: -Gedin əlinizi tər-təmiz yuyun, mən də evdə süfrə salım, gəlin oturun çörəyinizi orda yeyin.

Bunu eşidən vəzir dedi:

Vəzir: -Görürsünüzmü, qibleyi-aləm, bu evdə çörəyin qədri-hörməti böyükdü.

Şah: -Yaxşı bax! Ola bilməz ki, çörəkdən bir qırıq ayaq altına düşməsin, axı onlar nadandı, uşaqdı...

Vəzir: -Yox, hökmdarım! Görünür ki, ana onlara təndir çörəyini qədəriycən verir. Təndir çörəyi ovulmur. Uşaqlar da elə tərbiyə alıblar ki, artıq dişdəmi, loxmanı yerə atmırlar.

Padşah saraya qayıtdı. Nə düşündüsə səhər belə bir əmr verdi: ölkədə heç kəs təndir çörəyi bişirməsin. Hamı yuxa və nazik lavaş yesin. Bir müddət sonra padşah vəzirinə dedi:

Şah:-Vəzir, bilmirsən, o cütcü necədir?

Vəzir:-Soruşdum, qibleyi-aləm, darğa deyir ki, bu il buğdası yaxşı gəlib, bərəkət başından yağır.

Şah: Gedək, vəzir, öz gözümlə görməsəm inanmaram. Axı sənin sözünə qalsa, yuxa-lavaş yeyəndə kövrək qırıntılar uşaqların əlindən ovxalanıb aləmə dağılmalı, ayaq altı çörəknən dolu olmalı, nemət də yurddan qaçmalıdı. Yoxsa, fərmanıma əməl eləməyib, yenə də təndir çörəyi bişirtdirir? Dərisinə saman təpdirərəm!

Onlar söhbətləşə- söhbətləşə Etibar kişinin həyətinə çatdılar. Gördülər ki, həyətdə oynaşan uşaqların hər birinin boynunda ağ, təmiz parçadan tikilmiş kiçik bir torba asılıb. Uşaq lavaş-yuxa yemək istəyəndə ağzını torbaya tutub yeyir və qırıntılar da ora tökülür. Bunu görən vəzir dilləndi:

Vəzir:-Gördünmü, hökmdarım? Bu yurddan çörək əskik olmaz. Burda onun qədrini də bilirlər, hörmətini də. Ayaq altına düşməyə qoymurlar onu.

Səhnəcik bitdikdən sonra Kitabxanaçı səhnəyə yaxınlaşıb iştirakçılara təşəkkürünü bildirdi və bu ibrət yüklü hekayəyə uyğun tamaşaçılara sual verdi.

Kitabxanaçı: Uşaqlar, deyə bilərsinizmi, yazıçı bu əsəri qələmə almaqla oxuculara nələri demək istəmişdir?

I tamaşaçı: Çörək müqəddəsdir, onu müqəddəs edən isə ona çəkilən əmək, cəfadır. Çörək hasil olub, süfrələrimizə gələnə qədər o becərilir, yığılır, üyüdülür, bişirilir. Əgər bir parça çörək ayaqlar altına düşürsə, bu allahın nemətinə qarşı hörmətsizliklə yanaşı ona sərf olunan əməyə də hörmətsizlik olar. Bu insanların alın tərinə qarşı nankorluqdur.

II tamaşaçı: Bütün bunlar olmasın deyə, biz çörəkdən qədərincə götürməliyik. Onun qədrini bilməliyik. Çörəkdən elə istifadə etməliyik ki, o bizdən qaçmasın, bir günlük yox, ömür boyu bizi doyursun.

III tamaşaçı: Mən bu məqamda çörəklə bağlı bir neçə atalar sözü söyləmək istərdim. “Çörək bol olarsa, basılmaz vətən”, “Çörəyi ver çörəkçiyə”, “Çörək elin sərvətidir” və s.

IV tamaşaçı: Mən bu hekayədən belə nəticə çıxardım ki, böyüklər, valideyinlərinə düzgün yolu göstərmək üçün onu dəfələrlə deməkdənsə, özləri bunu edib örnək, nümunə olmalıdırlar. Kiçiklər isə bunun canlı şahidi olub həmin amalla yollarına davam etməlidirlər.

V tamaşaçı: Əgər biz çörək və digər nemətlərdən düzgün, qədərində istifadə etsək, heç vaxt onun qıtlığını, yoxluğunu hiss etmərik.

Əzizə Cəfərzadənin 105-illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də ədəbi bədii gecədir. "Elmimizin və elimizin ağbirçəyi" adlı ədəbi bədii gecədə Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, alimlər, maarifçilər, jurnalistlər, sənət-söz adamları, oxucular, məktəblilər iştirak edir. Qonaqlar ədibin şəkilləri, müxtəlif adda əsər başlıqları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecənin aparıcıları səhnəyə yaxınlaşır.

I aparıcı: Salam, dəyərli qonaqlar, bu il böyük yazıçı, bənzərsiz insan Əzizə Cəfərzadənin anadan olmasının 105-ili tamam olur. Bu münasibətlə buraya yığışmışıq. Sizləri bu mənalı və gözəl tədbirdə xoş gördük. Azərbaycan elmi qarşısında böyük xidmətlər göstərən Əzizə Cəfərzadə istər klassik Azərbaycan ədəbiyyatının, istərsə də şifahi ədəbi irsimizin öyrənilməsi sahəsində durmadan işləyib. İş burasındadır ki, alim Əzizə Cəfərzadənin elmi axtarışları yazıçı Əzizə Cəfərzadəyə böyük təsir göstərib.

II aparıcı: Yazıçının bütün əsərlərində Azərbaycan dilinin saflığı özünü göstərir. O, vətəndaş olaraq dil uğrunda apardığı mübarizədə həmişə qalib olub. Onun digər üstünlüyü isə ədəbi və elmi yaradıcılığı pedaqoji fəaliyyətlə əlaqələndirə bilməsindədir. Elmi tədqiqatçı kimi bir sıra aşıq və şailərin əsərlərini toplayıb çap etdirib. "Fatma xanım Kəminə" (1971), "Könül çırpıntıları" (1972), "Azərbaycanın aşıq və şair qadınları" (1974, 1991), "Azərbaycanın şair və aşıq qadınları" (II nəşr 2003), "Şirvanın üç şairi" (1971), "Mürcüm Kərim Vardani. Sünbülüstan" (1978), "Abdulla Padarlı. Seçilmiş əsərləri" (1979), "Hər budaqdan bir yarpaq" (1983) kitabları yazıçıya heç də bədii əsərlərindən az şöhrət gətirməyib.

I aparıcı: Onun həyatına nəzər saldıqda məəttəl qalmaya bilmirsən. Elə bil ki, Əzizə Cəfərzadə günün 24 saatını yazıb. Halbuki pedaqoji fəaliyyət, elmi axtarışlar, səfərlər, tərcümələr və ictimai fəaliyyəti heç vaxt kölgədə qoymayıb. Bütün işlər bir-birinə paralel şəkildə, vaxtlı-vaxtında çatdırılıb. Bir sözlə, yazıçı zamanı özünə uyğunlaşdıra bilib. Həm də Əzizə Cəfərzadə təkcə tarixi romanlar yazmayıb. Yazıçının "Sahibsiz ev" (1966), "Əllərini mənə ver" (1970), "Sənsən ümidim" (1984), "Xəyalım mənim" (2002) əsərləri geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanıb. Uşaqları yaddan

çıxarmayan Əzizə Cəfərzadə "Qızımın hekayələri" (1964), "Anamın nağılları" (1982), "Çiçəklərim" (1988), "Pişik dili" (2001) kimi hekayələr və nağıllar yazıb.

II aparıcı: Ana və qadın mövzusu onun əsərlərində həmişə qabardırılıb. Bununla da o, mənsub olduğu xalqın zərif cinsinin nümayəndələrinin müsbət keyfiyyətlərini, hiss-həyəcanlarını, mübarizliyini dünya oxucularına çatdırırdı. Yazıçı həm də bədii ədəbiyyatla kifayətlənməyib, yüzlərlə məqalə, oçerk, elmi-publisistik məqalələr yazaraq yerli və xarici mətbuatda çıxışlar edib. Folklorumuzun vurğunu olan Əzizə xanım "Bayatı düşüncələrim", "Xızır Nəbi", "Novruz" və başqa etnoqrafik yazıları ilə Azərbaycan xalqının milli adət-ənənələrini özündə əks etdirən böyük yazılarla daima mətbuatda çıxış edib. Türkiyə, İran, İsrail, Malayziya, Sinqapur, Hindistan, Kipr, Suriya və keçmiş Yuqoslaviya respublikalarında iştirak etdiyi beynəlxalq tədbirlərdə Azərbaycan və onun tarixi haqqında danışıb. Əzizə Cəfərzadə olduğu bütün ölkələrin kitabxanalarında yazdığı tarixi əsərləri ilə bağlı faktlar toplayaraq, romanlarında istifadə edib. Onun səyahət gündəlikləri oxucu üçün olduqca maraqlıdır. Olduğu bütün ölkələri əsərləri, yazıları ilə ədəbiyyatımıza gətirməkdən yorulmayıb.

I aparıcı: Öz şəxsi həyatı bu xanımın özü üçün heç vaxt maraqlı olmayıb. Çox nadir halda qadınlar bu yolu tutur. Həm də parlaq biznes fəaliyyəti və ya hansısa siyasi baxışlar üçün deyil, sırf ədəbi yaradıcılığı üçün bu addımı atanlara az rast gəlinir. Əzizə xanımın alnına bir də "qara qitə"də yaşamaq yazılıb. 1965-1966-cı illərdə pilot olan həyat yoldaşının işi ilə bağlı Qanaya (Afrikaya) gedib. Həmin illərdə Qanada yaşayan yazıçı xanım yaradıcılığından orada da əl çəkməyib. Onun səfər gündəlikləri 1968-ci ildə çap olunan "Qızıl sahilə səyahət" xatirət kitabında toplanıb. Kitabda yazıçı afrikalı insanların həyat tərzini, fəaliyyətlərini, kənardan görünə bilən və bilinməyən tərəflərini məharətlə təsvir edib.

II aparıcı: Bütün ömrünü Azərbaycan ədəbiyyatının tarixinə və onun araşdırılıb, geniş ictimaiyyətə çatdırılmasına həsr edən Əzizə Cəfərzadə 2003-cü ildə çevrilib geriyə – özünün gənclik illərində baş verən hadisələrə baxıb. "Xəzərin göz yaşları" adlı povestində yazıçı 1938-ci ildə Azərbaycanda yaşayan Cənubi azərbaycanlıların Stalin rejimi tərəfindən 3-4 gün ərzində İrana məcburi deportasiyasını olduğu kimi qələmə alıb. Əzizə Cəfərzadə şərqin dühası Məhəmməd Füzulini gözəl bilirdi. Onun son əsəri də elə bütün ömrü boyu axtarışında olduğu Füzuli həyatından bəhs edir. Ölümündən bir az əvvəl bitirdiyi "Eşq sultanı" romanı böyük Azərbaycan şairi Məhəmməd Füzulinin həyatı haqqındadır.

I aparıcı: Əzizə Cəfərzadə 1981-89-cu illərdə Respublika Qadınlar Şurasının sədri vəzifəsində işləyib. Tutduğu sosial statusdan asılı olmayaraq, qadın və uşaqların hüquqlarının qorunması sahəsində aktiv fəaliyyət göstərib. Özünü Azərbaycana həsr edən yazıçı xanım dəfələrlə respublikanın ən ucqar rayon və kəndlərinə gedərək, millətin tarixi, insanların taleyi ilə tanış olub və rastlaşdığı problemlərin həllində yaxından iştirak edib. O, həm də xeyriyyəçi kimi sıravi vətəndaşların sevgisini qazanıb. 1979-cu ildə kitablarından qazandığı qonorar hesabına Hacıqabul rayonunun Tağılı kəndində orta məktəb və klub binası tikdirib. Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağda erməni separatizmi baş qaldıranda ilk səsini ucaldan ziyalılar arasında Əzizə Cəfərzadə də vardı. Yazıçı dəfələrlə ön cəbhəyə gedərək, əsgərlərlə görüşüb, onlara ana nəvazişi göstərib. Xalqına bağlı olan xanım yazıçı xalqından ən böyük adı– "Azərbaycan Anası" adını ömrünün 80-ci ilində alıb.

II aparıcı: Onun həyatı digər həmkarlarından fərqlənib. O, qadınlardan daha çox kişi kimi mübarizə aparıb. Həmişə mənsub olduğu xalqın içində olub. Öz dediyinə görə, həyatda yalnız bir dəfə xoşbəxtliyin nə olduğunu dadıb. "Xalqlar həbsxana"sının dağılmasından sonra Kirovun Bakının Dağüstü Parkındakı "Çalağana" bənzəyən heykəlinin uçurulduğu gün Əzizə Cəfərzadənin həyatında ən xoşbəxt olduğu gündür! Bunu o özü dəfələrlə, bezmədən deyib.

I aparıcı: Onun haqqında keçmiş zamanda danışmaq ağır olsa da, təəssüf ki, əbədi ayrılığın bir qüssəsi həmişə bizimlədir. Azərbaycanın xalq yazıçısı, Azərbaycan xalqının yazıçısı Əzizə Cəfərzadə 4 sentyabr 2003-cü ildə, ömrünün 82-ci ilində uzun sürən xəstəlikdən vəfat edib. Millətinə düşkünlüyü ilə şəxsi həyatını arxa plana keçirən yazıçı öz vəsiyyətinə əsasən, Hacıqabul rayonunun Tağılı kəndində valideynləri, həyat yoldaşı və qardaşları ilə bir məzarlıqda dəfn edilib. Bu isə onun xalqına ən böyük arzusudur:

"Gələcək nəslimiz üçün sakit, dinc, müstəqil bir Vətən istəyirəm, xoşbəxt bir istiqbal arzulayıram!"

**Ədəbiyyat siyahısı:**

ƏSƏRLƏRİ

Latın qrafikası ilə

Aləmdə səsim var mənim : Roman. - Bakı : Şərq-Qərb, 2006. - 432 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Biz Cəfərzadələr. - Bakı : Şirvannəşr, 2001. - 304 s.

Eldən-elə : Roman . - Bakı : Şərq-Qərb, 2006. - 384 s. ; 21 sm. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Eşq sultanı : Roman. - Bakı : Şirvannəşr, 2005. - 204 s.

Xəzərin göz yaşları : Roman və povest . - Bakı : EL-ALliance, 2003. - 168 s.

DÖVRİ MƏTBUATDA

Axır ki, Aşıq Sənəmlə görüşdüm. : rəhmətlik qələm ustası folklorumuzun mahir bilicisiydi... // Qobustan. - 2015. - № 1. - S. 28.

Çörək : hekayə // Göyərçin. - 2015. - № 2. - S. 3.

Elçinin dərsi : hekayə // Göyərçin. - 2008. - № 1. - S. 18.

Məstan və dərman : nağıl // Göyərçin. - 2011. - № 8. - S. 4.

Şirin olasan : hekayə // Göyərçin. - 2011. - № 8. - S. 5.

Kiril qrafikası ilə

Aləmdə səsim var mənim : roman. - Bakı : Gənclik, 1978. - 440, [1] s.

Anamın nağilları : nağıllar. - Bakı : Gənclik, 1982. - 176 [1] s.

Azərbaycan poeziyaslnda xalq şeiri üslubu - Bakı : "Kommunist" qəzeti, 1981. - 79 s. - XIX əsr materialları əsasında.

Bakı-1501. - Bakı : Yazıçı, 1981. - 264 [1] s.

Cəlaliyyə : povestlər və hekayələr. - Bakı : Gənclik, 1983. - 466 s.

Çiçəklərim : Kiçik yaşlı uşaqlar üçün hekayələr . - Bakı : Gənclik, 1988. - 30 [2] s.

Eldən-elə : Roman. - Bakı : Gənclik, 1992. - 356 s.

Əllərini mənə ver... : povest və hekayələr. - Bakı : Gənclik, 1970. - 181 s.

İşığa doğru : Roman. - Bakı : Şirvannəşr, 1998. - 178 s.

Qızıl sahilə səyahət : xatirələr. - Bakı : Gənclik, 1968. - 142 s.

Qızımın hekayələri. - Bakı : Azərnəşr, 1964. - 18 s.

Natəvan haqqında hekayələr. - Bakı : Azərnəşr, 1963. - 59 s.

Sabir. - Bakı : Azərnəşr, 1989. - 227, [5] s.

Sahibsiz ev : hekayələr. - Bakı : Azərnəşr, 1966. - 79 s.

Sənsən ümidim : povest və roman. - Bakı : Gənclik, 1985. - 348 [1] s.

Vətənə qayit : roman və povest . - Bakı : Gənclik, 1977. - 304 [4] s.

Yad et məni : roman, hekayə və əfsanələr. - Bakı : Gənclik, 1980. - 318 s.

HAQQINDA

KİTABLARDA

Axundlu Y. Cəlaliyyə : Əzizə Cəfərzadənin eyniadlı romanı haqqında // Mənim ədəbi dünyam. - B. : Maarif, 1998. - S. 110-114.

Əzizə Cəfərzadə (1921-2003) // Müasir Azərbaycan ədəbiyyatı : dərslik : - B. : Bakı Universiteti nəşriyyatı, 2007. – C. 2. - S. 85-94.

Paşayev Q. Son şəkil : Əzizə Cəfərzadə haqqında // Borcumuzdur bu ehtiram. - B. : Qarabağ, 2010. - S. 58-62.

Rüstəm S. Ana : Əzizə Cəfərzadəyə // Seçilmiş əsərləri 3 cilddə. - Bakı : "Şərq-Qərb", 2005. - C.1. -S.90.

Sadıq F. Vətənə qayıt : Əzizə Cəfərzadə haqqında // Taleyin acığına. - B. : Çinar-Çap, 2003. - S,. 252-253.

DÖVRİ MƏTBUATDA

"Aləmdə səsim var mənim" : Tarixin romanını yazan Əzizə xanım : Əzizə Cəfərzadə - 90 // Azadlıq. - 2011. - 9 aprel. - № 79. - S. 13.

Fateh Z. (İbrahimov). Aləmdə səsi qalan yazıçı, müəllim, alim : Əzizə Cəfərzadə - 90 // Azərbaycan müəllimi. - 2010. - 24 sentyabr. - N 37. - S. 5.

Fərəcov S. Zərif qəlbin yazdığı tarixi həqiqətlər : yazıçı, ədəbiyyatşünas, ictimai xadim, filologiya elmləri doktoru Əzizə Cəfərzadə haqqında // Mədəniyyət. - 2013. - 29 dekabr. - № 94. - S. 12.

Xəlilzadə F. Xəyalımızda yanan işıq : Əzizə Cəfərzadə haqqında // Mədəniyyət. - 2010. - 29 oktyabr. - N 76. - S. 13.

İsmayılova S. Əzizə Cəfərzadə təzkirəçi alim kimi // Ktabxana.az. - 2011. - № 6. - S. 24-27.

Süleymanzadə M. Yazıçılar haqqında xatirələr // Azərbaycan : jurnal. - 2016. - № 9. - S. 165-169.